KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

## YENİ NƏŞRLƏR

# NAXÇIVANDA KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİNİN TARİXİ HAQQINDA DƏYƏRLİ TƏDRİS VƏSAİTİ







**Nəzakət İsmayılova. Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi: dərs vəsaiti / Elmi redaktor Knyaz Aslan; rəyçilər Aypara Behbudova, Sədaqət Nemətova. - Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2021. - 256 s.**

*Nəzakət Rza qızı İsmayılova Naxçıvan şəhərində dünyaya göz açıb.*

*1980-1985-ci illərdə Bakı Dövlət Universitetində təhsil alıb. Əmək fəaliyyətinə Naxçıvan Sahələrarası Ərazi Elmi-Texniki İnformasiya Mərkəzində başlayıb. 1992-ci ildən Naxçıvan Dövlət Universitetində baş laborant, müəllim, kafedra müdiri kimi fəaliyyət göstərib. 1995-ci ildə ""Varlıq" jurnalı və Şimali Azərbaycan ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. 2009-cu ildə dosent elmi adına layiq görülüb. Hazırda Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda tədris-pedoqoji və elmi tədqiqat işi ilə məşğuldur.*

*Cənubi Azərbaycan ədəbiyyatı və mətbuatı, kitab, kitabçılıq işi, kitabxanaşünaslığın nəzəri, təcrübi və metodik problemlərinə dair çoxsaylı elmi məqalələrin, monoqrafiya, dərs vəsaiti, metodik vəsait və proqramların müəllifidir. Azərbaycanda və bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq konfranslarda və sinpoziumlarda aktual mövzulara dair məruzələrlə çıxışları rəğbətlə qarşılanıb.*

*2017-ci ildə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi ilə əlaqədar olaraq muxtar respublikada təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.*

Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət İsmayılovanın "Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi" adlı dərs vəsaiti sahə üzrə yazılan mühüm tədqiqat əsəridir. Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 29 may 2019-cu il tarixli 10 nömrəli qərarı ilə çapa tövsiyə edilən kitabın elmi redaktoru pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz Aslan, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Behbudova və filologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Nemətovadır. 266 səhifədən ibarət olan dərs vəsaiti və həmin vəsaitin 28 səhifəlik fənn proqramı Naxçıvan şəhərindəki "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap olunmuşdur.

Məlumat üçün bildirək ki, Naxçıvan Dövlət Universitetində kitabxanaçılıq-informasiya ixtisası üzrə tələbə qəbulu 2009-cu ildən aparılır. Həmin il Tarix-filologiya fakültəsində Kitabxanaçılıq kafedrası yaradılmış, 2018-ci ildə o, Jurnalistika və dünya ədəbiyyatı kafedrasına birləşdirilmişdir. 2020-ci ildə isə kitabxanaçılıq və informasiya ixtisası Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması kafedrasının tərkibinə verilmişdir. Hazırda kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə bakalavr hazırlığı əyani və qiyabi formada Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasında həyata keçirilir. İndiyə qədər Naxçıvan Dövlət Universitetində 100-dən çox tələbə kitabxanaçılıq və informasiya ixtisasına yiyələnmiş, ali təhsilli kadr kimi müxtəlif sahələrdə əmək faliyyətinə başlamışdır.

Bununla yanaşı, 2007-ci ildən Naxçıvan Musiqi Kollecində də kitabxanaçılıq ixtisası üzrə orta ixtisas təhsilli kadrlar hazırlanmış, lakin iki il öncə kollecə bu istiqamətdə qəbul dayandırılmışdır.

2018-2019-ci il tədris ilindən isə Naxçıvan Müəllimlər İnstitutunda kitabxanaçılıq-informasiya ixtisası üzrə tələbə qəbuluna başlanılmışdır. Bu sahədə fəaliyyət göstərən müəllim heyətinin və adı çəkilən ixtisasa yiyələnən tələbə kollektivinin tədris ədəbiyyatı ilə təminatında əsasən Bakı Dövlət Universitetinin Kitabxanıcılıq-informasiya fakültəsi alimlərinin nəşr etdirdiyi fənn proqramları, dərsliklər, dərs vəsaitləri, metodik göstərişlər və s. mühüm rol oynamışdır. Bununla yanaşı, soz zamanlar Muxtar Respublikada çalışan səriştəli kadrlar həmin sahədə yaranan tələbatı öz səyləri ilə ödəməyə çalışır, kitabxanaşünaslıq və informasiya ixtisasına dair yeni proqramlar və vəsaitlər yazıb çap etdirirlər.

Bu baxımdan dosent Nəzakət İsmayılovanın hazırladığı "Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi" dərs vəsaiti bu uğurlu təşəbbüslərin əyani təsdiqidir.

Xatırlatmalıyıq ki, ötən dövrlərdə Hüseyn Tağıyev, Abuzər Xələfov, Aşur Əliyev, Sədaqət Nemətova və başqa mütəxəssislər bir sıra tarixi mənbələrə və rəsmi sənədlərə əsasən Azərbaycanın Naxçıvan bölgəsində kitabxana işinin təşklinə dair dəyərli araşdırmalar aparmış, burada kitabxanaların yaranması, fəaliyyəti və inkişafı ilə bağlı öz elmi əsərlərində müəyyən məlumat vermişlər. Həmin araşdırmaları daha da inkişaf etdirən dosent Nəzakət İsmayılova isə hazırkı dərs vəsaitində Naxçıvan ərazisində kitabxanaların meydana gəlməsi və formalaşması tarixini sistemli şəkildə ümumiləşdirərək bütövlükdə bölgədə kitabxanaların fəaliyyətinin aydın mənzərəsini yarada bilmişdir.





Ümummilli lider Heydər Əliyev vaxtilə deyirdi: "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Bizim əsas məqsədimiz Naxçıvanın tarixini hərtərəfli öyrənmək, tədqiq etmək, onları elmi və populyar kitablarda dərc etmək, təbliğat materiallarında istifadə etməkdir".

Çoxəsrlik tarixi dövrə ayna tutan, özündə zəngin materillları əks etdirən, gərgin axtarışların bəhrəsi olan dərs vəsaitində XI-XX əsrlərdə Naxçıvanda kitabxanaların tarixininin xronoji ardıcıllıqla mərhələlərlə tədqiq edilməsi, bu mədəniyyət ocaqlarının dövrün ictimai-siyasi və sosial-iqtisadi hadisələri ilə sıx əlaqədə öyrənilməsi olduqca təqdirəlayiqdir.

Müəllif orta əsrlərdən başlayaraq indiki dövrə qədər Naxçıvan ərazisində kitabxanaların meydana gəlməsi, formalaşması, inkişafı və təkmilləşməsi üzrə əhatəli araşdırma aparmışdır. O, əsrdə ilk yazılı kitabələrin yaradılması, əlyazmaların hazırlanması, kitab mədəniyyətinin formalaşması ilə bağlı fikirlərini əsaslandırmaq üçün sonralar arxeoloji tədqiqatlar nəticəsində üzə çıxarılan çoxsaylı maddi nümunələr barədə məlumat vermiş, onların əhəmiyyətindən bəhs etmişdir.

Mədəniyyət tarixinin mühüm tərkib hissəsi olan kitabxanaların yaranmasının və təşəkkülünün xalqımızın sosial-iqtisadi və elmi-mədəni inkişafı müstəvisində tədqiq edən müəllif göstərir ki, kitabxanalar Naxçıvanda keşməkeşli bir tarixi yol keçmişdir. Ötən dövrlərdə ayrı-ayrı bölgələrdə müxtəlif növ kitabxanalar təşkil edilmiş, zaman-zaman onların zəngin fondu formalaşdırılmış, xalqın istifadəsinə verilmişdir. Bu baxımdan milli mədəniyyətimizin ayrılmaz elementi kimi kitabxanalar mədəniyyət tarixinin tədqiq edilib öyrənilməsində ən vacib amil rolunu oynayır.

Naxçıvan şəhərində ilk kitabxanaların və qiraətxanaların təşkili ilə bağlı maraqlı məlumatlar verən alim qeyd edir ki, orta yüzilliklərdən Azərbaycanın digər bölgələrində olduğu kimi burada da kitabxanalar məscid və mədrəsələrin yanında fəaliyyətə başlamış, sonralar digər kitabxana növləri də meydana gəlmişdir. XIX əsr boyunca məktəb şəbəkəsi genişləndikcə Bakı, Gəncə, Şamaxı, Quba şəhərləri ilə yanaşı Naxçıvanda da yeni tipli məktəblərin yanında kitabxanalar yaradılırdı. Bu kitabxanaların fondunun həmin dövrdə çıxan kitab, qəzet və jurnalllarla komplektləşdirilməsi işinin həyata keçirilməsi prosesi də burada öz əksini tapmışdır.

Dərs vəsaitində qeyd olunduğu kimi, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Naxçıvanda da ilk ictimai-kütləvi kitabxana və qiraətxanalar fəaliyyətə başlamışdır. Onlardan biri də 1922-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən təsis edilmiş Naxçıvan Şəhər Kitabxanasıdır. Naxçıvan Muxtar Respublika Kİtabxanası 1930-cu ildə həmin kitabxananın bazasında yaradılmışdır. 1947-cü ildən görkəmli yazıçımız Məmməd Səid Ordubadinin adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanası keçən dövr ərzində tarixi-mənəvi, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanmasında, milli yaddaşın möhkəmlənməsində, cəmiyyətin mənəvi və intellektual potensialının inkişafında əvəzsiz rol oynamışdır.

2007-ci ildə əsaslı təmir olunan və modernləşən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası müasir kompüter dəstləri ilə təmin edilmiş, İnternetə qoşulmuşdur. Fondunda 300 min nüsxə çap məhsulu saxlanılan kitabxananın 26 mindən çox oxucusu var. Burada 50 nəfərlik böyük oxu zalı, 35 nəfərlik dövri mətbuat zalı, 10 nəfərlik kompüter internet zalı fəaliyyət göstərir.

Naxçıvan şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, onun filiallarının yaranması, inkişafı, əhalinin kitabxana-informasiya təminatının təşkili və metodik təminatı xüsusiyyətlərindən bəhs edən müəllif fikirlərini konkret faktlarla təsdiqləyir. O, Naxçıvan şəhərində, Şərur, Babək, Şahbuz, Ordubad, Culfa, Kəngərli, Sədərək rayonlarında kitabxana resursları və onların yerləşməsinin müasir vəziyyəti, bölgədə yerləşən digər idarə və müəssisələrin kitabxanalarının fəaliyyəti, kitabxanaların kadr təminatı haqqında əsaslı məlumatları diqqətə çatdırır. Onun məlumatına görə, Naxçıvan Muxtar Respublikasında kitabxanaların mərkəzləşdirilməsi ilk dəfə 1976-cı ildə Şahbuz rayonunda, 1977-ci ildə Şərur və Culfa rayonlarında, 1978-ci ildə Ordubad rayonunda, 1979-cu ildə Babək rayonunda həyata keçirilmiş, mərkəzləmə prosesi 1980-ci ilədək başa çatdırılmışdır.

Alim Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin Elmi Kitabxanasının əsasının 1972-ci ildə Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasının filialı kimi Naxçıvan Regional Elmi Mərkəzinin nəzdində qoyulduğunu vurğulayır. Bu qurum Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə yaradılan AMEA Naxçıvan Bölməsinin tərkibində müstəqil elmi kitabxana kimi fəaliyyətini davam etdirir. 2013-cü il sentyabr ayının 4-də kitabxana Elektron Kitabxana statusu alaraq fəaliyyətini bu istiqamətdə aparmağa başlamışdır. Universal xarakterli elmi kitabxana kimi o, öz fondlarını elmi-texniki, ictimai-siyasi və ədəbi-bədii ədəbiyyatla komplektləşdirir.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında kitabxana işi istiqamətində həyata keçirilən dövlət siyasəti haqqında ətraflı məlumat verən müəllifin vurğuladığı kimi, 1993-cü ildə xalqın çağırışı ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin titanik fəaliyyəti sayəsində Azərbaycan öz müstəqilliyini qoruyub saxlamış, dərin siyasi, iqtisadi, hərbi, sosial və mədəni böhrandan çıxmağa nail olmuşdur. Bu dövrdə mədəni quruculuq, o cümlədən kitabxana işi sahəsində ciddi islahatlar aparılmış, kitabxana fəaliyyətinin inkişafına köklü zəmin yaranmışdır.

Dərs vəsaitində zəngin materiallara əsaslanmaqla Naxçıvanşünaslıq Mərkəzinin yaranması və inkişafına da ayrıca diqqət yetirilmişdir. Bəllidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 17 fevral 2011-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi kitabxanasının və Naxçıvan Muxtar Respublika Kitabxanası "Naxçıvanşünaslıq" bölməsinin bazasında Naxçıvanşünaslıq Mərkəzi təşkil edilmişdir. Sərəncamda deyildiyi kimi, Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və adət-ənənələrinin, milli-mənəvi dəyərlər sisteminin elmi dəlil və konkret faktlar əsasında yenidən araşdırılmasına başlanmışdır. Həmin elmi araşdırmalar sayəsində və həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində 792 yeni tarixi abidə tapılaraq tədqiq olunmuş, ümumilikdə 1172 tarix və mədəniyyət abidəsi pasportlaşdırılaraq dövrü və tipoloji mənsubiyyəti müəyyənləşdirilmiş, 46 tarixi abidə bərpa olunmuş, tarix və mədəniyyət abidələrinin mühafizəsi təmin edilmişdir.

Bununla yanaşı, uzun müddət öyrənilməsinə qadağa qoyulmuş Nuh peyğəmbər və Naxçıvan bağlılığı yenidən elmi tədqiqatların gündəliyinə çıxarılmış, Ordubad rayonu ərazisində olan və eradan əvvəl IV minilliyə aid edilən Gəmiqaya abidəsi, buradakı daşüstü yazılar öyrənilmiş, Naxçıvan şəhəri ərazisində Nuh





peyğəmbərin qəbrinin yeri müəyyənləşdirilərək qədim mənbələr əsasında bərpa olunmuş, Naxçıvanın ilkin şəhər mədəniyyətinin öyrənilməsində mühüm amil olan Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin tarixi və arxeoloji istiqamətdə öyrənilməsinə başlanmış, əldə olunan nəticələr əsasında Naxçıvanın 5 min illik ilkin şəhər mədəniyyəti elmi dövriyyəyə daxil edilmişdir.

Elmi ekspedisiyalar, arxeoloji tədqiqatlar Naxçıvanşünaslığın digər istiqamətlərinin də öyrənilməsinə ciddi əsas yaratmışdır. Naxçıvanın tarixi, mədəniyyəti, toponimikası, azərbaycanlıların soyqırımı və deportasiyası, maarifçilik hərəkatının və təbii ehtiyatların öyrənilməsi ilə bağlı 50-dən artıq simpozium və konfrans keçirilmişdir. Naxçıvanşünaslığa aid 700-dən çox monoqrafiya, kitab, elmi məqalə, dərslik və dərs vəsaiti nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublika Kitabxanasında "Naxçıvanşünaslıq" bölməsi təşkil edilmiş, geniş məlumat bazasına malik "Nakhchivan.az" internet portalı yaradılmışdır.

Müəllifin dərs vəsaitində Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının, Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasının, Heydər Əliyev Universiteti Kitabxanasının, "Naxçıvan" Universiteti Elmi Kitabxanasının, Naxçıvan Müəllimlər İnstitutu Elmi Kitabxanasının, Naxçıvan Universiteti Elmi Kitabxanasının, Naxçıvan Tibb Kolleci Kitabxanasının, Naxçıvan Dövlət Texniki Kolleci Kitabxanasının, Naxçıvan Musiqi Kolleci Kitabxanasının yaranması, inkişafı, fəaliyyəti, müasir vəziyyəti və informasiya təminat sistemi haqqında müfəssəl məlumat vermiş, onların hər birinin bütövlükdə regionda kitabxana-informasiya xidmətinin təşkili və oxuculara xidmət sahəsində rolunu konkret faktlar və rəqəmlərlə aydınlaşdırmışdır.

Dərs vəsaitində Naxçıvan Muxtar Respublikasında kitabxanaçılıq ixtisası üzrə kadr təminatının inkişafı və müasir vəziyyəti, 2007-ci ildən Naxçıvan Musiqi Kollecində, 2009-cu ildən Naxçıvan Dövlət Universitetində, 2017-ci ildən Naxçıvan Müəllimlər İnstitutunda kitabxanaçılıq-informasiya ixtisasına tələb qəbulunun aparılması, eləcə də müasir informasiya texnologiyalarının kitabxanaların fəaliyyətinə tətbiqi məsələlərinə diqqət yetirilməsi təqdirəlayiqdir.

Beləliklə, dosent Nəzakət İsmayılovanın "Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi" adlı dərs vəsaiti bu bölgədə ən böyük informasiya mənbəyi olan və uzun əsrlər boyu cəmiyyətin tərəqqisinə xidmət edən kitabxanaların tarixinin araşdırılması, elmi təhlilinin aparılması, zəngin materialların sistemli şəkildə ümumiləşdirilməsi sahəsində dəyərli mənbədir. Kitabxana işinin və kitabxanaşünaslığın inkişafını işıqlandıran bu kitab həm də Naxçıvan tarixşünaslığının zənginləşdirilməsi baxımından sanballı töhfə hesab edilə bilər. Dərs vəsaitinin bütövlükdə Azərbaycanda mədəniyyət tarixini və kitabxana işi tarixini araşdıran və öyrənən mütəxəssislər, eləcə də tələbələr və geniş oxucu auditoriyası üçün faydalı olacağına əminik.

**Knyaz Aslan,**
**Bakı Dövlət Universiteti Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent**